**Namiq Babaxanov**

# Allaha yaxınlaşmağın yolu

**(Məqalələr toplusu)**

## Birinci məqalə

## Aşura ziyarətnaməsi

Məhərrəmliyin əsas əzadarlıq simvollarında biri Aşura ziyarətnaməsini oxumaqdır. Əlimizə çatan lap qədim zamanlardakı İmam Hüseyn məclislərini araşdıranda da bunu açıq aydın görmək olur. Əzadarlıqlar əsasən Quran tilavəti ilə başlayır, Aşura ziyarətnaməsi oxumaqla davam edir, dini söhbət, növhəxanlıq, şəhidlər sərvərinə gözyaşı axıtmaqla sona yetir. Əslində Aşura ziyarətnaməsi təkcə bu əza məclisləri deyil, ümumiyyətlə mənəvi zənginlik, ruhani dirçəliş yolu tutanların əsas üstünlük verməli olduğu bir məqamdır. Demək olar ki, bütün əxlaq və irfan ustadları mənəvi təkamülə çatmaq üçün Aşura ziyarətnaməsi oxumağı, hətta hər gün oxumağı tövsiyyə ediblər. Bu ziyarətnamə çox böyük mənəvi uğurlara çatmağa vasitə ola bilir. Məlumdur ki, Aşura ziyarətnaməsi az yaşlarında Kərbəla müsibətinin şahidi olan İmam Muhəmməd Baqirdəndir. İlahi hüccətlərin uşaq və ya yaşlı olması bir o qədər də fərq etmir. Bunlar əslində yaşları az olsa da bu yolun qədim yolçularıdırlar. İsa peyğəmbər beşikdə nübüvvət şəhadəti verirsə, İmam Cavad, İmam Mehdi az yaşlarında imamət məqamına yetişirsə, elə həmin İsa peyğəmbər, zamanın hüccəti İmam Mehdi əsrlərdir qeybdə qalır və bir gün zühur edəcəksə demək ki, bu şəxslər üçün zamanın, uşaq və ya yaşlı olmanın fərqi yoxdur, yaşadıqları, gördükləri, öyrətdiklrəi həmişə mötəbərdir. Xülasə, Aşura ziyarətnaməsi də Aşura şahidinin dilindən olması ilə kəramət tapır. Maraqlı burasıdır ki, bu ziyarətnamə əsasən iki istiqamətdədir, birincisi: İmam Hüseynin qatillərini tanıtdırır, Allah düşməni olduqlarını vurğulayır və onları lənətləyir. İkinci istiqamət: İmam Hüseyni və tərəfdarlarının məqamını tanıtdırır, Allah dostları olduqlarını vurğulayır və onlara salam və məhəbbəti öyrədir. Qısası Aşura ziyarətnaməsi lənətdən (uzaqlıqdan) və salamdan (yaxınlıqdan) ibarətdir. Allahın hüccətinə, onun yoluyla gedənlərə salam, yaxınlıq, məhəbbət, Allahın hüccətinin düşmənlərinə, onu öldürməklə, həqiqət yolunu məhv etmək istəyənlərə lənət, uzaqlıq, nifrət, bəraətdən ibarətdir Aşura ziyarətnaməsi. Əslində İmam Hüseynin Kərbəlada Aşura günündəki müsibəti elə bunu öyrədirdi. Aşura ziyarətnaməsi ona görə böyük mənəvi məqama sahibdir ki, kiçik anlamda elə Aşuranın özüdür. Əslində İslam dini, Tohid məktəbi özü də elə “Təvəlla” (Allahın dostlarıyla dost olmaq), “Təbərra” (Allah düşmənləriylə düşmən olmaq) deməkdir. Adəm - ilk bəşər və ilk peyğəmbər Allah dostu, İblis Qiyamətə qədər Allah düşmənidir. İmam Hüseynin yolu Allah dostlarının yolu, Yezidin yolu Allah düşmənlərinin yoludur. Aşura ziyarətnaməsinin əzəməti bu həqiqətləri insana çatdırmağındadır. Məşhur “Hər gün Aşuradır və hər yer Kərbəladır” deyimi də elə buna işarədir, ibadətdən də üstün olan bu yolu düz getmək. Bəzən ibadət əhli cəmiyyətdə ikrah yaradır, çünki, getdiyi yol, həyat tərzi doğru deyil. Yolu düz getməyənin ibadətinin, xeyir əməlinin nə faydası?! İblisin Adəmin yaranışına qədər min illər ibadət etməsi

rəvayətlərdə gəlib və ya İmam Əli zamanında xəvariclərin ibadəti məşhur idi, onlar yolları o qədər azdılar ki, İmamı, hətta adi günahsız insanları qətlə yetirməyi belə ibadət sanırdılar. Yolu Allahın yolu olmayanların hər yaxşı əməli belə onlara hicabdır və həqiqəti dərk etməyə maneədir. Allah yolunu tapmaq və düz getmək üçün isə mütləq Allah dostlarını düşmənlərindən ayırd etmək, zalımlara daim lənətləmək, məzlumları həmişə dua etmək gərəkdir. Aşura ziyarəti bu xüsusiyyətə malik olduğu üçün çox oxunması tövsiyyə olunur, o Aşuranı yaşadır, Aşura da insanı, ...

**Baku - 2024**

## İkinci məqalə:

## İslam klerikalizmi

Avropada renesansdan sonra məşhurlaşan sözlərdən biri də “klerikalizm”dir, əvvəldə əsasən xristian və qərb dünyasında formalaşsa da, müsəlman ölkələrində dünyəvi dövlətlər çoxaldıqca istər-istəməz müsəlmanlar üçün də aktual oldu. Klerikalizm dünyəvi dövlətdə dinin dövlətə və cəmiyyətə təsir etməsidir. Əlbəttə bu “teokratiya”dan fərqlidir, teokratik dövlət tam dini və ruhanilərə bağlı bir dövlət quruluşudur, klerikalizm isə dövlət quruluşu modeli deyil, dünyəvi dövlətdə siyasi ideoloji yönümdür. Sekulyar dövlətlər, renesansa qədər Avropada iqtidar olan kilsə hakimiyyəti dağılandan sonra meydana gəldi, dünyəvi dövlət anlayışı ordan formalaşdı, bu səbəbdən yanlış olaraq sekulyarizmi dinin qarşısında görürlər. Dünyəvi dövlət yəni sekulyarizmdən doğan laik bir dövlət quruluşu və bu dinə qarşı bir quruluş deyil. Doğrudur sekulyarizm dinin dövlətdən ayrı olmasıdır, lakin dinin köşəyə sıxışdırılması və dindar kəsimin təzyiq altında saxlanılması anlamına gəlməz. Dünyəvi dövlətdə xalqın inancının nəzərə alınması, dini dəyərlərə yer verilməsi bir normadır və bu istiqamətdə olan siyasi ideoloji cərəyan xritian dünyasında klerikalizm adlanır. Zaman keçdikcə dünyəvi müsəlman ölkələrində də klerikalizm müşahidə olunur. Məsələn bunun ən bariz nümunəsi kimi Türkiyədə Rifah partiyasını, böyük müsəlman-demokrat Nəcməddin Ərbəkanı göstərmək olar. Əslində İslamda klerikalizm müsəlman-demokrat siyasi xəttidir. Müasir dünyada teokratik dövlətlərin, islami inqilabların dönəmi keçib, artıq müasir dünya belə halları qəbul etmir və bu yol verilməzdi, belə hadisələrin sonrakı ziyanı xeyrindən daha çox olur. Ən böyük ziyanı isə dinin gözdən düşməsi, dinə nifrətin çoxalması hallarıdır. Ümumiyyətlə zamanın sahibi - İmam Zamanın böyük qeybdə olduğu müddətdə hakimiyyətlərin qurulmasının və iqtidarların dəyişilməsinin yeganə və əvəzolunmaz yolu seçkidir, demokratiyadır, xalqın rəyidir və dünyəvi dövlətdir. Müsəlmanların da digər siyasi partiyalar sırasında demokratik fəaliyyət göstərmələri ən doğru yoldur. Cəmiyyətdən təcrid olmaq, marqinallaşmaq, başqalarına dözümsüzlük nümayiş etdirmək dinimizdə də qəbul olunmur və yanlışdır. İslam klerikalizmi zamanında Türkiyədə uğursuz bir nəticəyə yuvarlanması bu yolun yanlışlığı demək deyil, əslində bu gələcəyin yoludur. Əlbəttə bu mövzuda söz çoxdur və müzakirə genişdir. Biz sadəcə klerikalizm və bu İslamda necə ola bilər haqqında qısa fikir bildirdik. Xristian dünyası bu yolla din siyasətində uğur qazanıb. Əlbəttə bu müsəlman ölkələrində tam ayaq tutmayıb amma bir yol kimi müzakirə oluna bilər. Fikrimcə müsəlman ölkələrində dinin cəmiyyətdəki təsiri ən mühüm mövzulardan biridir, bu istiqamətdə çoxlu

müzakirələr aparılsa da İslam dünyası dünyəvi dövlətlərdə din məsələsini tam çözə bilməyib. Klerikalizm müsəlmanlar arasında ümumiyyətlə İslamda olması tam normaldır. Hər halda ən azı müzakirə oluna bilər.

Bakı - 2020

## Üçüncü məqalə

## Tanımaq və tanıtmaq

Günümüzün əsas mövzularından biri “originallar və saxtalar”dır. Biz hər bir şeyin originalını axtarırıq, saxtasından uzaq durmağa çalışırıq, yaxşı bilirik ki, original daha faydalı və xeyirlidir, saxtaya isə imitasiya, bənzər, oxşar, təhrif olunmuş, dəyişdirilmiş deyilsə də, sadə adı saxtadı, yəni əsil və original deyil. Biz bunları tanımaq və ayırmaq üçün, axtarış da aparırıq, mütaliə də edirik, tərkibini də yoxlayırıq, çünki ziyan çəkmək istəmirik. İnsan onsuzda belə yaranıb, özünə faydalı olanı axtarır və ardınca gedir, zərər və ziyandan isə qaçır. Original və saxta məsələsi dinlərdən də yan keçməyib, mən ibtidai və fəlsəfi dinləri nəzərdə tutmuram, qənaətimcə insanlar yanlışlıqla onları din adlandırıblar. Bu məsələ, yəni original və saxta məsələsi əsasən səmavi dinlərə aiddir, əlbəttə, dinimizə görə "saxta din", təhrif olunmuş (dəyişdirilmiş) din adlandırılır. Allah tərəfindən ardıcıl olaraq göndərilən beş səmavi dindən dördü təhrif olunub. Allah insanlar arasından seçdiyi elçilərinə mələklər vasitəsi ilə göndərdiyi səmavi kitablar, əslində həmin dinin, daha qəqiq desək şəriətin qanunlar toplusu idi, bu səmavi kitablar şəriətin özəyini təşkil edirdi, əslində dəyişdirilmələr məhz bu kitablara olduğu üçün həmin şəriət təhrif olunurdu. İslam dininin qorunub saxlanılmasının, digər dinlər kimi təhrif olunmamasının ən başlıca səbəbi bu dinin kitabı olan Qurani-Kərimin əsrlər boyu qorunması və heç bir dəyişikliyə məruz qalmamasıdır. İslam meydana gələndən bu günə qədər dünyanın hər bir yerində eyni mətnli bir Qurani-Kərim mövcuddur. Şəriətin kitabı, qorunursa, təhrif olunmursa həmin şəriət köklü dəyişikliyə məruz qalmır, ən azından saxtaları originaldan, yalanı həqiqətdən ayırmaq asan olur. Məhz bu da, təhrifə və saxtakarlığa mane olur. Əlbəttə zaman-zaman İslam dinini də dəyişdirmək və təhrif etmək yolunda çox çalışdılar, hətta saxta səmavi kitab da ortaya çıxarmaq istədilər, amma buna nail ola bilmədilər. Quranın hətta bir surəsi, bir ayəsinin müqabilində belə aciz qaldılar. Bütün bunlara baxmayaraq, çox təəssüf ki, İslam dininə də zərbə vura bildilər. Digər dinlər kimi İslamı tam olaraq təhrif edib, aradan apara bilməsələr də, İslam və ona inananlara ciddi mənfi təsir göstərdilər. Əslində isə bütün inasanlığa bir yara vurdular və bu proses indi də davam edir. Bəzilərinin kini, bəzilərinin cəhli, bəzilərinin hiyləsi Qurana təsir göstərməsə də, bəzən onun səhv təfsirinə yol açdı, tarix təhrif olundu. Yalan hədislər doğru hədislərə qarışdı. Nəticədə İslam dini firqələrə ayrıldı, müsəlmanlar parçalandı. Ən faciəlisi isə budur ki, bu bölünmədə elə firqələr meydana çıxdı ki, onların yanlışı onları saxta dinin daşıyıcılarına çevirdi. Əsil dini gözdən salmaq əsas fəaliyyətləri oldu, bu isə birlik və vəhdətə ciddi maneəyə çevrildi. Bütün bunlara baxmayaraq, İslam tam təhrif olunmayıb. Çünki, Quran

toxunulmaz qalıb. İslam “saxta İslam” tərəfindən aradan getmədi. Bu işdə İslam peyğəmbərinin misilsiz rolu var, sonuncu səmavi dinin elçisi bütün bu hadisələri öncədən sığortaya almış həqiqət ardınca olanlar üçün həqiqət yolunu göstərmişdir, axtaranlar, İslamı olduğu kimi görmək istəyənlər onu tapa bilir. Çox təəssüf ki, əşyalarda original axtarışında olanlar, dində bu məsələdə səhlənkarlıq edirlər, əslində dinin faydası bizə daha çox və daha böyük olduğu halda insan maddi əşyaların originalına daha çox üstünlük verir. Maddi nemətlərdə olduğu kimi mənəvi nemətlrədə də originalı axtarıb, tapıb istifadə edənlər əsl qazananlar olacaq. Fikrimcə, bu gün ən zəruri məslələrdən biri də həqiqi İslamla, yalançı İslamın, həqiqi müəslmanla yalançı müsəlmanın tanınmasıdır. Bu məsələni hətta dualarımızda belə bunu unutmamalıyıq. Son illərdə Şərqdə baş verən amma bütün dünyanın diqqətini özünə cəlb edən qanlı hadisələr və müharibələr bizi düşünməyə vadar edir, belə getsə dünya həqiqi müəslmanlarla yalançı müsəlmanların daha qanlı faciələrinin şahidi ola bilər. Artıq uzun illərdir ki, İslamı gözdən salan, müsəlmanlara ləkə olan, bəşəriyyətə düşmən kəsilən, amma adı İslamla, müsəlmanlarla, dinlə bağlı olan “Əl-Qaidə”, “İŞİD”, “Boka-haram” və onları müdafiə edənlərin saxta İslamın daşıyıcıları olduğunu biz öz aramızda bilsək də, məsələn bir latın amerikalı və ya avstraliyalı üçün onlar elə İslam nümunəsi və müsəlmandırlar. Bu saxta İslam təbliğatçılarını, bu saxta müsəlmanları tanıtdırmaq üçün İslam dinini olduğu kimi tanyıb-tanıtmaq hər birimizə vəzifə olub. Odur ki, dində originalı axtarmaq daha vacib və zəruridir. İslamı, dinimizi olduğu kimi tanımağın yolunu isə Peyğəmbərimiz göstərib. Peyğəmbərin gətirdiyi və dünyada bərabəri olmayan Quran və bərabəri olmayan Peyğəmbərimizin itrəti, Əhli-beyti, sonuncu din, İslam, haqq yoldır. Məncə, dünya sonuna, Qiyamətə yaxınlaşdıqca bəşərin haqqı tapmağında Quran və Peyğəmbər əhli-beytinin rolu daha da artacaq. Bəşər bir həddə gəlib çatacaq ki, Qurani-Kərim və ona tam olaraq əməl edən, Quranın əməli və canlı nümunəsi olan Peyğəmbər və Əhli-beytsiz olmağın yanlış olduğunu dərk edəcək. Çox təəssüf ki, bu qədər həyati zərurəti olan Quran və İtrət, əslində isə haqq olan yeganə din tam və geniş şəkildə insanlara lazımınca tanıtdırılmadı. Bu günə qədər Quranın ancaq tərcüməsi, Peyğəmbər əhlbeyti isə yalnız digər təriqət və məzhəblərlə müzakirə fonunda tanıtdırıldı. Fikrimcə, Quranı ayə-ayə, Əhli-beyti nəfər-nəfər olduğu kimi tanıtdırmaq zəruridir, bu dinin özüdür, gerçək İslamdır. Quranı, Peyğəmbəri və əhli-beytini tanıyan sağlam düşüncəli, qərəzsiz insan onları qəbul edəcək, əsas olan düzgün tanımaq və tanıtdırmaqdır, sonrasını insan Allah verən ağlı və vicdanıyla dərk edəcək.

**Bakı - 2018**

**Dördüncü məqalə**
**Əsrə bərabər bir gün**

Allaha həmd olsun ki, günlər aylara, aylar illərə calanır, geri dönüb baxanda həm şəxsi, həm də ictimai həyatımızda acılı-şirinli xatirələrlə dolu bir zaman arxada qalır. Şəxsi həyat hardasa hər kəsin gizlinidir, o haqda zərurətdən başqa hallarda danışmaq bəyənilmir, bu gün dəbdə olan sosial şəbəkələrdə danışmaq heç doğru deyil. Amma ictimai həyatda bir çox hadisələr olur ki, onları danışmaq və yazmaqla yaşatmalıyıq. 2019-cu ilin dekabrından bəşəriyyətə müsəllət olan "koronavirus" adlı bəla və ya oyunu nəzərə almasaq fikrimcə 2021-ci ilin ən böyük hadisəsi mart ayında oldu. Müsəlman dünyasının ən böyük alimlərindən və liderlərindən olan Ayətullah Əl-Üzma Sistani xristian təriqətlərindən katolik xristianlarının lideri Roma Papası Fransisklə görüşdü. Roma Papası İrak səfəri çərçivəsində həmin ölkənin katolikləri və həmin ölkədə yerləşən dünya şiələrinin iki ən böyük elmi və məzhəbi şəhərlərindən biri olan Nəcəfdə Ayətullah Əl-Üzma Sistani ilə görüşdü. Görüş Ayətullahın Nəcəfin dar və kasıb küçələrində yerləşən fəqir evində baş tutdu. Bəzi müsəlmanlar hətta İslami qurumlar bu görüşü kölgəyə salıb onun yalnız İrak üçün əhəmiyyyətli olmasını təbliğ etsələr də, onların hadisəyə cahilanə və ya qərəzli yanaşması göz qabağında idi. Çünki dinindən, millətindən, asılı olmayaraq bu hadisənin fövqəladə əhəmiyyətinin olması haqda bir çox insanlar fikir bildiriblər. Hadisə nəinki iki böyük dinin məzhəbi, hətta iki böyük dinin bir - birinə yaxınlaşması, dinlərarası dialoq, sivilizatsiyaların birgə inkişafı baxımından çox önəmli oldu. Əsasən katolik ölkələrində zaman-zaman təxribatçılar tərəfindən din düşmənlərinin fitnəsiylə Qurana, Peyğəmbərə və müsəlmanlara olan həqarətə əslində Roma Papası öz hərəkətiylə cavab verdi, bir müctehidin evinə gələrək problemi kökündən çözdü. Bəlkə də müsləman ölkələrində yaşayanlar bunun təsirini o qədər də hiss etməzlər, amma xristian ölkələrində xristian - müsəlman birliyinə böyük təsir etdi. Bu hadisə məncə bir ilin, bir ayının, bir günündə olsa da bütün bir əsrə bərabər idi və nəticəsi də çox böyükdür.

Ayətullah Əl-Üzma Sistani arxasında heç bir dövlət dəstəyi olmadan, dünyanın ən kasıb ölkələrindən birinin, ən kasıb şəhərlərindən birində, ən kasıb məhəllədəki fəqiranə evindən az qala bütün dünya şiələrini idarə etməyi bacaran, bütün müsəlmanlar arasında hətta bütün dünyada nüfuzu olan bir fəqihdir, ümumiyyətlə son illərdə bu şəraitdə və bu qədər geniş nüfuzlu bir din aliminin olmasını xatırlamıram. Son illərdə - 2001-ci ildən Səddamın devrilməsindən bu günə qədər aktiv siyasətdə böyük rolu olan, İŞİD işğalı dönəmində onlara qarşı ən böyük addımlar atan, minlərlə tələbə yetişdirən bir liderdir. Onun müqəllidləri dünyanın hər bir tərəfində var, onun təbliğə göndərdiyi insanlar bütün dünyayda öz vəzifəsini layiqincə yerinə yetirirlər. Ona bağlı olam beynəlxalq islam

mərkəzlərindən London Əhlibeyt İslam Mərkəzi uzun illərdir ki, Avropda İslamın dayaqlarından biridir. Bütün bunlar heç bir dövlət resursu olmada sırf o fəqir evdə yaşayan böyük bir aliminn zəhmətinin və Allaha bağlılığının nəticəsidir. Papa Fransisk seçim edərkən zərrə qədərdə olsun səhv etməyib, o elə bir adamın qapısına gəlib ki, həmin adam yalnız Allahın köməyi ilə bu uğurlara imza atıb.

Əslində Roma Papası da heç bir dövlətə bağlı olmayan, İtaliyada yerləşməsinə baxmayaraq müstəqil dövlət olan Vatikanın başçısıdır, məncə bu insanların görüşünün təsirli olmasının səbəblərindən biri də elə budur. İraqın ziyarətgahları, mədrəsələri, cümə namazları, xaricdə onlarla beynəlxalq İslam mərkəzləri, yüzlərcə nümayəndəliklər, dünyaca nüfuzlu "Alul-beyt" beynəlxalq təşkilatı, milyonlarca müqəllid, yüzlərcə internet resusrsları Nəcəfin o fəqiranə evində yaşayan bir fəqihin işidir. "Alimlər Peyğəmbərlərin varisləridir" hədisi Sistani ağa kimi fəqihlərin simasında yaşayır.

**Bakı - 2022**

## Beşinci məqalə
## Allaha yaxınlaşmağın yolu

Hər il Məhərrəmlikdə dünyanın müxtəlif yerlərində ağlar gözlərlə İmam Hüseyn və Kərbəla şəhidlərinə matəm tutulur, göz yaşları axıdılır, əzadarlıqlar keçirilir, ehsanlar verilir, insanlar bununla da Aşuranın məzlum şəhidləri və şahidləri ilə əhdi-peymanlarını təzələyir, onların yolunda olduqlarını Allah və bəndə yanında bir daha təqdisqləyirlər. Çox təəssüf ki bu ayda göz yaşı axıdıb Tanrı yanında savaba çatanlar olduğu kimi məhz bu aya görə günaha düşən, Allaha üsyan edənlər də olur, bunlar məncə insan adlı varlığı heç tanımayan, bu əzadarlığın mahiyyətini dərk etməyən, qərəzlə əzadarlara irad tutanlardır. Məsələn hər Məhərrəmlikdə "kişi ağlamaz", "din məgər elə ağlamaqdı" , "onlar behiştə gediblər siz niyə ağlayırsız" və sair kimi iradlarla ürək bulandırırlar. Təbii ki, biz burda bütün iradlara cavab verə bilərik, amma bu yazıda sadəcə azacıq və necə deyərlər yüngülvari "ağlamaqdan" söz açacağıq, fikrimcə bu hardasa elə o iradlara da qismən cavab ola bilər.
Göz yaşı axıtmaq, ağlamaq Qurani Kərimdə bir neçə yerdə gəlib və Allah bizə bu halda olan insanları göstərib, məsələn Məryəm surəsində Allah sübhanəhu və təala Peyğəmbərlərindən danışır, onların əhvalatlarını xatırladır, ilahi elçilər və onların saleh övladlarına işarə edərək buyurur: "Rəhman Allahın ayələri onlara oxunan zaman ağlayaraq səcdəyə düşürdülər" (Məryəm surəsi, ayə 58).
Qurani Kərimdə başqa bir yerdə - İsra surəsində Allah öz Peyğəmbərinə ilahi ayət və nişanələri görüb Tanrının qarşısında səcdəyə düşən saleh bəndələrindən danışır: "Onlar üzüqoylu düşüb ağlayırlar və itaətkarlıqları artır." (İsra, ayə 109)
Hər iki ayədə ağlamağın və göz yaşı axıtmağın saleh bəndələrə xas olan bir xüsusiyyət olması göstərilib, ilahi məqsədlərdən ötrü və ya ilahi nişanələrin müqabilində ağlamaq insanı Allaha yaxınlaşdıran bir vasitədir.
Göz yaşı və ağlamaq haqqında Peyğəmbərimiz və onun məsum Əhli-beytindən olan hədis və dualarda da maraqlı məqamlar var, məsələn İslam Peyğəmbəru bu haqda "Xoş o insana ki, etdiyi və heç kəsin xəbəri olmayan günahına görə Allah qorxusundan ağlayan halda Allah ona baxır" deyə buyurub. Bəlli olur ki, Allah bəndəsinin Ona yaxınlaşmaq məqsədilə tökdüyü göz yaşına xüsusi diqqəti var. İslam peyğəmbərindən olan başqa bir hədisdə belə buyurulur: "Kimin gözü Allah qorxusundan yaş töksə, onun göz yaşının hər bir damcısı üçün əməl tərəzisinə Ühüd dağı boyda mükafat qoyarlar." Deməli insan etdiyi günahların nəticəsinin ağır olacağından, Allahın verəcəyi cəzadan qorxaraq ağlarsa bu böyük ilahi mükafata səbəb olar.

Başqa bir hədisdə İmam Əli bin Əbu Talib ağlamaq insanın ağlar gözlərə sahib olmasının səbəbini açıqlayır: "Qəlblərin qorxması və gözlərin ağlaması adı uca Allahın rəhminin nişanəsidir, bu ikisini özünüzdə tapan zaman dua etməyi qənimət bilin" Hədisə əsasən hər kim Allaha xatir ağlamağı bacarırsa deməli ilahi rəhmət ona şamil olub və bu məqamda təbii ki dua qəbuldur, İmam həmin halda dua etməyi tövsiyyə edir.
Məsələn İmam Əlinin özünün tez-tez oxuduğu, öz əshabı Kumeyl bin Ziyada öyrətdiyi, sonradan elə onun adıyla da məşhurlaşan "Kumeyl" duasında Allahla razi-niyaz edərkən dua sahibinin dilindən Allaha belə müraciət olunur: "Sərmayəsi ümid, silahı göz yaşı olan bəndənə rəhm et" Nəzərə alsaq ki, İmam əlinin çox önəm verdiyi bu dua Xızır peyğəmbərdən qalıb deməli bütün təkallahlı dinlərdə Allaha yaxınlaşmq üçün bəndənin Allahla razi-niyazında ağlar gözlərin, göz yaşı təkməyin əhəmiyyəti çoxdur. Həqiqətəndə xətasından peşmanlığını, qorxunu və bağışlanmaq istəyini, qəm-kədərini, bəzən ruhani sevincini göz yaşı tökmək və ağlamaqdan başqa əməli şəkildə necə göstərmək olar?!
Əziz İslam peyğəmbəri bəzi hədislərdə ağlamayan və ya ağlaya bilməyən insanlara da işarə edib və buyurub: "İnsanın göz yaşının olmaması, ağlaya bilməməsi bir insan üçün bədbəxtlik əlamətidir" təbii ki Rəsuli Əkrəm burada Allaha xatir, Allaha yaxınlaşmaq məqsədi ilə axıdılan göz yaşından danışır. Odur ki insanın, Allah xovfundan, qəm-qüssədən ağlaması normal haldır.
İmam Əli isə ağlamamağın səbəbini bir qədər daha dəqiq müyyən edib: "Göz yaşları yalnız qəlbin daşlığı, qəsavətli olması səbəbindən quruyar, qəlblər isə yalnız günahların çoxluğundan sərtləşər". Deməli əgər insan daş ürəkli, rəhmsiz, qəsavətli qəlbə sahib olduğu halda göz yaşı da axmaz, ağlaya bilməz. Ağlamaq rəhimli, kövrək insanlara məxsusdur ki, bu da insani keyfiyyətlərdir. Ayrıca daş ürəkli olmağın səbəbi də insanın günahkar olması, günaha adət etməsindəndir, deməli günahkar, günahını dərk etmədikcə, ona davam etdikcə, bu ilahi nemətdən məhrum olar. Amma günahını dərk etdiyi, peşiman olduğu an, onu tərk etmək, Allaha tərəf qayıtmaq qərarına gəlsə göz yaşları axar. Təsadüfü deyil ki, insan Allahla razı niyaz edəndə, həqiqi tövbə edəndə göz yaşlarını saxlaya bilmir.
İslam Peyğəmbəri və digər məsumlardan olan rəvayətlərdən görürük ki, insanın qəm-kədər, müsibət baş verdikdə ağlaması normal və insanı bir xüsusiyyətdir, hər kəsən öz ölüsünə ağlayırsa buna heç kəs anormal hal kimi baxmaz, hətta tanıdıqlarımızın əzizləri dünyadan gedəndə bəzən kövrək insan olmayanlar da ağlayır və yaxud kiməsə hər hansı digər bir müsibət baş verəndə normal insan bu hadisələrə gülmək deyil ağlamaqla qarşılayır və buda normal bir haldır. Hansı normal ağıla sahib olsan insan matəmdə ağlamağı düzgün saymaz?!
Hədsilərdə bizə gələn xəbərlərdən bəlli olur ki bu dünyada axan göz yaşları və ağlamaqların ən savablısı Kərbəla çölündə, Aşura günündə şəhid edilən İmam

Hüseyn və digər şəhidlərin faciəsinə, müsibətinə ağlamaqdır. Allahın peyğəmbərinin nəvəsinin Allahın dinini qorumaqdan ötrü Allah yolunda misli görünməmiş faciəvi şəkildə qətlə yetirilməsinə kədərlənmək və ağlamaqdan savablı nə ola bilər, onlara ağlamaq Allaha yaxınlaşmaqdı. İmam Hüseyn və Kərbəla şəhidlərinə ağlamaq Allaha xatir, mərifət və agahlıqla olsa təbii ki, Allaha yaxınlaşmaq üçün gözəl bir vasitədi, Allahın dinini qoruyan insanın Allah yolunda şəhadətinə və bu şəhadət yolunda çəkdiyi ağrı-acılara axan göz yaşları ilahi göz yaşlarıdır və insanı Allaha yaxınlaşdırar, bu barədə hədislər həddən artıq çoxdur burda bir neçəsini qeyd edək. Allahın Rəsulu hələ İmam Hüseyn uşaq olarkən anası Həzrəti Fatiməyə buyurdu: "Hüseynin müsibətində ağlayan gözlərdən başqa bütün gözlər qiyamət günü ağlayacaq" Yəni onsuz da Qiyamət günü bütün gözlər ağlardır, yalnız Hüseynin müsibətinə Allaha yaxınlaşmaqdan ötrü agahlıqla kədərlənib ağlayanlardan başqa. Bu dünyada Hüseynə ağlayan gözlər Qiyamətdə sevinər.

Kərbəla şəhidlərinə ilk ağlayan elə İmam Hüseyn karvanının sağ qalan üzvləri – İmam Səccad və Xanım Zeynəb başda olmaqla digər Kərbəla əsirləri və eyni zamanda şahidləri olmuşlar, tarixə görə Kərbəla hadisəindən bir neçə il keçməsinə baxmayaraq İmam Səccad bu müsibətə görə ağlayardı.

Məsələn "Nahiyə" ziyarətində oxuyuruq ki, İmam Zaman cəddi İmam Hüseynə xitab edərək belə buyurur: "Gecə və gündüz sənə əzadarlıq edib göz yaşı tökürəm. Əgər göz yaşım qurtarsa, onun yerinə qan ağlayaram." Bəllidir ki, İmam Zaman da İmam Hüseynə ağlayır.

İmam Cəfər Sadiqdən çatan rəvayətdə İmam Hüseyn müsibətinə ağlamağın, ağlatmaqın (hadisəni kiməsə çatdırmaqla) və hətta kədərlənməyin belə sonsuz savabı var. Odur ki Allahın dinin qoruyaraq Allah yolunda dəhşətli faciə ilə dünyadan gedən şəxslərə ağlamaq insanı Allaha yaxınlaşdırar və bu elə Allah üçün axan göz yaşlarıdır.

Təsadüfi deyil ki bəzi din alimləri, ilahi şəxslər İmam Hüseyn əzadarlığında ağladıqları zaman göz yaşlarını sildikləri çib dəstmalını xüsusi olaraq saxlamış və öləndə onunla birgə qəbrə qoyulmasını vəsiyyət etmişlər, yəni bu qədər İmam Hüseyn yolunda axan göz yaşlarına önəm vermişlər.

Mövzumuz göz yaşlarıdı, sonda özümün şahidliyimlə baş vermiş bir hadisəni də burda qeyd etməyim yerinə düşərdi. Moldovada yaşayan yaxın bir dostumun qohumunu Kişinyovda gözündən əməliyyat edəcəkdilər. Dostum əməliyyat öncəsi zəruri olan bir dərmanı tapıb almaq məqsədi ilə Kiyevə yanıma qonaq gəlmişdi. Məlum oldu ki axtardığı dərman Ukraynada istehsal olunsa da Moldovada çox çətin tapılır. Dostumla bir yerdə bu dərmanı almaq məqsədi ilə çox axtardıq amma həmin dönəmdə nədənsə Ukraynada da tapa bilmədik. Dostum çox narahat oldu, dedi ki həkim deyir bu dərman olmasa biz o göz əməliyyatın edə bilmərik. Bu göz

dərmanşı göz yaşardıcı xüsusiyyətə malikdir, göz yaşının əvəzidir, bu dərmanı qəbul edəndən sonra gözlər yaşarır və göz yaşları əmələ gəlir bu isə əməliyyat öncəsi bir neçə gün ardıcıl baş verməlidr. Həkim demişdi ki əgər xəstə, kövrək və aglayan insan olsaydi, ağlar gözlərə sahib olsaydı heç əməliyyat öncəsi bu dərmana ehtiyac olmazdı, hətta ümumiyyətlə heç həmin göz xəstəliyinə tutulmaz və əməliyyat olunmazdı.
Həkimin dediyi sözü mən indiyə qədər unuda bilmirəm. Bizim dinimzədə insanlara Allaha xatir, İmam Hüseynə ağlamağı, insanın Yaradan qarşısında günahlarını yadına salıb qəlbdən kövrəlməsi və göz yaşı axıtması tövsiyyə olunub. İmam Hüseynə matəm tutanları, göz yaşı axıdanları qınayanlar məlum olur ki dindən xəbərsiz olduqları kimi dünyadan da xəbərsizdilər. Mən ümumiyyətlə dini ritualların fiziki və ya bioloji təsdiqini və ya səbəbini axtarıb araşdırmağın tərəfdarı deyiləm, ilahi hökmlərə sorğu-sualsız əməl etmək lazımdı, şəriət hökümləri səbəblərinə görə deyil ünvanlarına görə əməl olunmalıdır. Amma belə məsələlər dində şək edənlərə təsirli olur, bəzi vaxt bəzi insanlar üçün Allahın kitabından adı bir həkimin sözü daha inandırıcıdır. Bu hadisəni onlar üçün qeyd etdim. Ola bilər bu çoxlarına məlum bir məsələ idi, amma mənə çox maraqlı və mənalı gəldi. Odur ki ,ilahi məqsədlərlə göz yaşı ağıtmaqdan çəkinməyək ...

**Bakı - 2023**

## Altıncı məqalə

## Həqiqət kölgədə qalanda

Gördüyümüz hər nə varsa əslində nəyinsə nişanəsi və əlamətidir, nədənsə xatirə və işarədir. Bu dünyanı elə nişanə və əlamətlər dünyası da adlandırmaq olar. Burda çətin olan həmin o əlamət və işarələrin aid olduğu ünvanı düzgün tapmaqdır, ən böyük yanlışlıqlar da elə burda olur. Fərqi yoxdu bu əşyaların, yaxud da baş verənlərin nişanəsi olsun, əsas odur ki, istənilən halda bu bir düşüncə və təfəkkür tələb edir. Elə hər gördüyünə və ya eşitdiyinə araşdırmadan, öyrənmədən, fikirləşmədən dərhal reaksiya vermək və indiki dövrdə çox asanlıqla mümkün olan ictimai müzakirəyə çıxarmaq qarma-qarışıqlıq yaradır, fitnə salır, ən pisi isə belə vəziyyətdə həqiqət aydınlanmır. Tarixən peyğəmbərlərin Allah nişanəsi olan kəlamlarına və möcüzələrinə də belə yollarla kölgə salıblar və nəhayətdə Allahın yeri-göyü əhatə edən nişanələrinin Onun varlığına sübutu olması aydınlanmayıb. Hansı mövzuda olur-olsun cəmiyyət üçün belə hallar xoşagəlməzdi, çünki istənilən mövzuda əsas məsələ həqiqətin üzə çıxmasıdır. Belə məsələlərin həlli elmi yanaşma, öyrənmək, araşdırma aparmaq və ən azından mütəxəssislərin veridiyi cavablara diqqət etməkdən keçir.

Bəzən isə hər il eyni mövzu, eyni etiraz, eyni müzakirə, eyni cavabla qarşılaşırıq, hər il verilən cavablar və arqumentlər sanki kifayət etmir yaxud da kimlərəsə məsələnin həlli deyil, qalmaqal və şou yaratmaq sərf edir. Çox təəssüf ki, incəsənət, siyasət sahəsində çox aktual olan qalmaqal və şou yaratmaq, dini camiəyə də sitrayət edib. Fərqi yoxdur bu məsələlər dinlərarası, məzhəblərarası yaxud da elə məzhəbdaxili olsun, hər sahədə eyni vəziyyətdi.

Məsələn elə İsa peyğəmbərin mövludu və milad təqvimi ilə yeni rəsmi təqvim ilinin başlanğıcı haqqında uzun illərdir ki, söz-söhbətlər dolaşır. Əvvəldə onu deyim ki, şəxsən bizim ailə 20 yanvar faciəsindən bu günə qədər yeni rəsmi təqvim ilinin gəlişini qeyd etmirik, sonuncu dəfə 1989-cu ili yola salıb, 1990-cı ili qarşılamışıq, o da elə o zamana qədər hər il olduğu kimi adi və sadə şəkildə, süfrə açılıb, stol arxasında televizorda bayram verlişlərini izləmişik. Yəni biz heç vaxt bu bayramı qeyri-müsəlman ölkəlrində ki, kimi təntənəli qeyd etməmişik. Bunu ona görə qeyd edirəm ki, yəni mənim bayram keçirib-keçirməməklə bağlı bir dərdim yoxdu.

Ümumiyyətlə isə postsovet ölkələrində yaşayanların əksəriyyəti bu bayramı elə bizim kimi, sırf ilin təhvil olması kimi qeyd edirdilər, bu SSRİ dağılandan sonra da həmin ölkərdə elə eyniylə davam edir, əlbəttə təntənəli və eyş işrətli mərasimlərdə olur. Uzun illərdi Ukraynada yaşadığımdan bu məsələni bu məsihi və slavyan ölkəsində elə belə də müşahidə etmişəm. SSRİ-də din qadağası olduğundan, hətta sonradan bu barədə yumşalma olmasına baxmayaraq din kilsə, məscid və

sinaqoqlardan kənara çıxmırdı. Yəni yeni il bayramı heç sovetlər vaxtında da xristianlıq əlaməti olmayıb. Elə bu mövzudan dolayı kifayət qədər bu məsələni Ukraynada araşdırmışam, heç kəs yeni ilin gəlişi bayramını xristianlıq əlaməti kimi tanımır, hətta bu sualı gülüşlı qəbul edirlər. Əlbəttə xristianlıq bayramları kifayıət qədər var, məsələn İsa Məsihin anadan olması bayramını katoliklər 25 dekabrda, provaslavlar 7 yanvarda qeyd edirlər, bundan əlavə Müqəddəs Nikolay günü, Müqəddəs Tatyana günü, Pasxanı qeyd etmək olar. Hətta adında "müqəddəs" kəlməsi olan hər əlamətdar günü də dini əlamətli bayram sanmaq olmaz, məsələn, yaranışında dini kökü olsa da belə, "Müqəddəs Valentin" günü - sevgililər günü kimi qeyd olunur və heç dinə aidiyyəti də qalmayıb. Əlqərəz sözümün canı budur ki, bu məsələlər araşdırma tələb edir.

Yeni rəsmi təqvim ilinin başlanğıcı da yuxarıda qeyd etdiyim qəbildəndir, baxmayaraq ki, İsa Məsihin miladı ilə bağlı bir təqvimin başlanğıcıdır. Əlbəttə yuxarıda qeyd etdiyim kimi milad bayramı fərqli günlərdə qeyd olunur və həqiqətəndə onda təhrif olunmuş xristianlığın əlamətləri vardır. Yeni rəsmi təqvim ilinin başlanması, köhnə təqvim ilinin yola salınmasında isə heç bir xristianlıq əlaməti yoxdur, bunu azacıq araşdıran insanlar belə əgər həqiqəti üzə çıxarmaq istəyirlərsə görə bilərər. Bayramda baş verən haram işlər isə həmişə, hər yerdə və hər zaman haramdır, onunçun xüsusi bir günə ehtiyac yoxdur. Eyşi-işrət, haram içkilər, naməhrəmlərin bir yerdə əylənməsi və s. Allahın buyurduğu haramlardır, istər hansısa konkret gündə olsun istərsə də adi vaxtlarda. Yəni fikirləri bu haramlardan uzaq olmağa yönəltmək əsasdır, istər bayram olsun ya olmasın, yaxud əza günlərinə düşsün ya düşməsin, ya da ki, hansısa yığıncaq səbəbində xristianlıq əlamətinin olsun ya olmasın. Biz insanları bayram və ya hər hansı münasibətlə toplaşdıqda haram işlərdən uzaq olmağa çağırırıqsa bunu doğru yolla etməliyik, yeni ili xristianlıqla bağlayıb insanları həmin bayramda əyləncə adı altında günah işlətməsinin bu yolla guya ki, qarşısını almaq məncə yanlışdır. Bu əlamətdar gündə xristianlıq əlaməti yoxdusa və elə yoxdurda, əgər insanlar haram etmirlərsə, birgə bir süfrə arxasında oturub, lap elə bir-birinin qarşıdakı təqvim ilinə bərəkətli olması diləyiylə uğurlar arzulayırlarsa, hətta Allaha dualar edirlərsə bunu şişirtməyin, şou yaratmağın, faciəyə çevirməyin mənası yoxdur və əks təsiri var. Bundan əlavə belə məsələlərə vaxt ayırmaq müsəlmanların qlobal problemlərindən yayınma, əsl həqiqətlərin kölgədə qalmasına səbəb olur, inanın ki, əsl faciə elə budur. Şaxta baba, qar qız, bəzədilmiş şam ağacı uşaqların barbi, vinks, tom-çeri, nu-poqodi  və sair kimi oyuncaqlarından fərqlənmir.

Lap elə əlamətlərə gəlincə də, məsələn İslam nişanələri kimi Avropada minarə, hicab, azan qadağası var, çünki bunlarla rastlaşanda İslam yada düşür. Xristianlıq əlamətləri də xaç, ikona, kilsə, kilsə zəngi, Bibliya, İncilin oxunan dualarıni misal çəkə bilərik ki, bunların heç biri yeni rəsmi ilin qarşılanmasında işlənmir. Əlbəttə müqəddəs bayramlarında bunların hamısına müraciət edirlər.

Bundan əlavə bu günki həyat tərzimizdə, hətta ruhanilərimizin də faydalandığı bir sıra əşyalar, geyimlər var ki, onlar vaxtıyla xristianlığın və ya yəhudiliyin, hətta bütpərəstliyin əlaməti olub, indi artıq ümumiləşib və bütün dünya bunlardan istifadə edir.

Bundan əlavə təhrif olunmuş xristianlıq və hətta yəhudiliklə bağlı münasibətimiz İsa və ya Musa peyğəmbərlərə qarşı hörmətsizliyə, insanların onlara nifrət bəsləməsinə səbəb olmamalıdır, bu dinlər və ümumiyyətlə İslama qədər olan bütün Tovhid dinləri təhrif olunduğu üçün onlar dinimiz də həmin dinlərin əlamətlərini qadağan edib və illa Həzrəti İsa Məsih və Həzrəti Musa Kəlimullah Allahın böyük və şəriət gətirən peyğəmbərləridirlər.

Burda bir başqa məsələ də var, baxın, biz o biri peyğəmbərlərin doğum tarixini dəqiq bilməsək də  İsa peyğəmbərin doğum tarixini hardasa dəqiq (katolik xristianların qeyd etidyi kimi 25 dekabr) bilirik. Fikrimcə bu tarixi qeyd etməyimiz və bunu bir ənənə halını salmağımız  həm  dinlərarası dioloqa xidmət edər, həm də İsa Məsih barədə əsl gerçəkləri üzə çıxarar. Unutmayaq ki, İsa peyğəmbər Quranda adı ən çox çəkilən peyğəmbərdir - 25 dəfə, onun peyğəmbərlik müjdəsi möcüzəvi doğumuyla və anadan olan kimi verilsə də, 30 ildən sonra nüvüvvət missiyasının icrası başladı və cəmi üç il peyğəmbərlik etdi, şəriət və kitab sahibi kimi ulul-əzm peyğəmbərlərdən oldu, gənc ikən - 33 yaşında insanlar arasından qeyb oldu.  İsa Məsih haqqında geniş araşdırmalarım var, əgər Allah nəsib etsə İsa Məsihi və xristianlığın tarixini olduğu kimi ayrıca yazarıq.

**Bakı -  2021**

**Yeddinci məqalə**

**İslamın təbliğat modeli**

Zaman-zaman bəzi künç-bucaqda qalmış fikirlər yenidən gündəmə gəlir, məsələn, İslamda model axtarışı çoxdankı söhbətdi, bəlkə də  bu məsələnin tarixi yüzillliklər öncəyə gedib çıxır, yəni islamı hansı təbliğat modeli ilə çatdıraq, miladi 10-11 ci əsrdən artıq belə fikirlər dolaşmaqdaydı. Məncə bunun əsl səbəbi İslamın müxtəif, ölkələr və millətlər arasında yayılmasıdır. Sözsüz ki bəzi padşahların hakim olduqları xalqları daha rahat idarə etmək üçün bu məsələni gündəmə gətirməsi də ciddi səbəbdir. Bu məsələ ortaya çıxanda bir sıra insanların buna əks reaksiyası da təbiidir. Hər iki tərəfin sözündə həqiqət var, sadəcə bir anlaşılmazlıq da var. Məsələn İslamın Türkiyə, İran, Ərəb və s. modeli deyəndə İslam dini deyil, bu dinin  insanlara təqdimatında, təbliğində, yayımında, çatdırılmasında istifadə olunan modeldən sohbət getdiyini çoxları bilmir. Əlbəttə mümkündü kimlərsə bu model məsələsini ortaya atmaqla bötövlükdə dini kölgə altına almaq istəsinlər. Əslində isə İslam dininin insanlara təqdimatında, təbliğində, yayımında, çatdırılmasında model məsələsi müzakirə oluna bilər. Biz istəsək də istəməsək də dinlərin təbliğində digər məsələlərdə olduğu xalqların xüsusiyyətləri yer alır. Xalqların və millətlərin xüsussiyyətləri dini təbliğata qarışanda dinin bir hissəsi kimi görünür və bu özləri üçün normal hal olsa da digər ölkələrin ondan istifadə etməsi doğru deyil. Başqa xalqın xüsusiyyətləri digər xalq tərəfindən qəbul olunmaya bilər, bu da normal haldır. Ona görə hər ölkənin, xalqın özünün təbliğat modeli olması ən yaxşı yoldur. Məsələn İslam dininin insanlara təqdimatında, təbliğində, yayımında, çatdırılmasında Azərbaycan modeli ən yaxşı dini yoldur. Azərbaycan xalqı hər məsələdə olduğu kimi dinin təbliğində də xüsusi yanaşmaya ehtiyaclıdır. Məncə vaxtilə xristianlığın, sələfiliyin Azərbaycanda ayaq tutmasının bir səbəbi də bu oldu ki onlar öz əqidələrini xalqın qəbul edəcəyi modeldə təbliğ etdilər. Nəyi təbliğ etməyindən asılı olmayaraq onu hansı modeldə təbliğ etmək çox önəmlidir. Azərbaycan xalqının özünəməxsus yanaşmaya ehtiyaclı olması, modelinin varlığını və bu barədə müzakirələrin aparılmasının mümkünlüyünü yaradır. Bu məslənin müzakirəsi elə bilirəm çirkli məqsəd güdənlərin pis niyyətlərini puça çıxara bilər. Əslində elə indi din siyasəti bu yöndə aparılır. Qəbul edirəm ki,  çox incə və həssas məsələdir, mütəxəssislərin çox ustalıqla incələməsinə zəruridir. İslamın qırmızı xətləri, dəyişilməyən hökmləri olduğu kimi qalmaqla İslamın təbliğatında Azərbaycan modeli ideyasını kimin ortaya atmasinin fərqinə varmadan müsbət hal hesab olunmalıdır. Din bizim tariximizin, milli kimliyimiz, mədəniyyətimizin bir parçasıdır. Odur ki, azərbaycanlılar bu yolu necə getməyi yaxşı bilirlər, çünki tarixən din həyatımızın bir hissəsi olub. Bizim başqa

modellərə ehtiyacımız yoxdur, azərbaycanın özünün dini təbliğat modeli əslində var və tarixən də olub. Hətta sovetlər dönəminin ən kəskin allahsızlıq zamannında belə dini bu xalq yaşadıb.

**Bakı - 2019**

**Səkkizinci məqalə**
**Yaddaşımızdakı tarix**

Bəzi günlər yaddaşımıza elə həkk olunub ki, onları unutmaq asan deyil. Məsələn, 9 may, 31 dekabr, 1 yanvar və sair, bizim yaşıdların hətta bizdən bir az sonrakıların yaddaşına həkk olunmuş xatirələrlə dolu bir tarixdir. Amma bu əsas deyil, o qədər belə xatirələri yadımızdan silmişik ki, məsələn 7 noyabr, 28 aprel, 1 may ... Əsas olan odur ki, biz bu gün də, bu tarixlərlə yaşayırıq ya yox. Məsələn 31 dekabr və 1 yanvarla indi də yaşayırıq. Biri, vətəni Azərbaycan olanların həmrəylik günüdür. Vətəndən kənarda yaşamayanlar bəlkə də bilməz, Azərbaycandan kənarda hər harda heç tanımadığın bir azərbaycanlı görəndə, adama elə doğma gəlir ki, sanki biz əzizini görürsən. Hətta hər hara getsək, gözümüz azərbaycanlı axtarır və tapırıq da. Doğrudur həmişə həmrəy ola bilmirik, amma bu bizik, yaxşısı da bizimdi, o birisi də. Birdə ki, həmrəylik vəhdətin ilk pilləsidir, hətta bu ilk pillə ailə həmrəyliyindən başlayır da deyə bilərik. Axı ailəmiz də əksər azərbaycanlıların birgə yaşadığı bir Azərbaycan ocağıdır. Ailəmizdə, məhəlləmizdə, işyerimizdə, şəhərimizdə, ölkəmizdə və nəhayətdə dünyamızda azərbaycanlıların həmrəyliyi önəmlidir, bu minvalla insan ümumbəşəri həmrəyliyə də çatar bilər. Həmrəy ola bilməyənlərin həmrəylik gününün olması, əslində elə həmrəyliyin başlanğıcıdır, ilk addımıdır, başlamışıq, nümunəsini də 44 günlük vətən savaşında göstərmişik, demək ardı da gələr. Zənnimcə bu tarix təsadüfən seçilməyib, sovetlər dönəmində azərbaycanlıların həmrəy olduğu bir-neçə tarixi gündən biri də elə həmin gün - 31 dekabr, yeni il axşamı idi. Allah həqiqi həmrəyliyi bizə daim nəsib etsin. 1 yanvar da bizimdi, yaşadığımız təqvimin ilk günüdü, istər-istəməz biz bu təqvimlə yaşayırıq, hər başlanğıc isə bir ümid verir, yeni bir arzu dilə gətirilir, Allaha dua edilir. Hər halda bizə doğum şəhadətnaməmizi, ölüm şəhadətnaməmizi də bu təqvimlə verirlər, qəbirlərimizin üstündə də bu tarixi yazırlar. Faktiki bu bizim ilimizdi. Odur ki, hər yeni təqvim ili başlayanda dostlarıma uğurlar diləmişəm, xoş arzular arzulamışam, dualar etmişəm. Sözümün canı çox təəssüf ki, bəzi insanlar belə adi məsələləri böyüdüb, problemə çevirirlər. Yeni ili hansı təqvimlə qarşılamağın, hansı təqvimlə rəsmi olaraq qeyddə olmağın o qədər də bir əhəmiyyəti yoxdu, bu məsələ iman və möminliklə də əlaqəli deyil. Bu məsələ yalnız sadəcə ürək bulandırar, ixtilaf yaradar. Qurani Kərim və hədislər insanlara orta yolu tutmağı, mülayim olmağı, ifrat və tərfitin arasında bir xətt seçməyi tövsiyyə etdiyi halda, önəmsiz məsələləri gündəm etmək, dinin insanlardan istədiyi deyil. Yaxşı, pak, Allaha bağlı insna olmaq üçün, hansı təqvimdə, hansı ölkədə, hətta hansı çoğrafiyada yaşamağın fərqi yoxdur. Çox təəssüf ki, elm, texnika, internet, süni intellekt və sair müasir vasitələr inkişaf etdikcə, düşüncələr cılızlaşır və əsas ciddi məsələlər ümumiyytələ unudulur. Yaddaşımızda o qədər silinməyən

tarixlər də var ki, əgər hər mövzuya bir müzakirə açsaq, cılız məsələlərin müzakirəsində ömrümüzü puç edərik.

**Bakı - 2021**

**Doqquzuncu məqalə**
**Ukraynada İslam və müsəlmanlar**

Ukrayna müsəlmanlar üçün ən tolerant xristian ölkələrindən biridir, ümumiyyətlə demək olar ki, ölkədə dini sahədə olan tolerantlıq dünyaya nümunə olacaq qədərdir. Bu ölkədə bütün dinlərin nümayəndələri yaranmış bütün imkanlardan bərabər səviyyədə faydalanırlar, heç kəsə dini inancına görə məhdudiyyət və ya aqressiya yoxdur. Hamı kimi müsəlmanlar da azad və sərbəst şəkildə öz inanclarına uyğun yaşayırlar. Əlbəttə bunu da qeyd edək ki, bu daim belə olub, Ukraynada tarixən yaşayan tatar müsəlmanlar azlıq təşkil etsələr də həmişə xristianlarla birgə sülh və qardardaşlıq şəraitində yaşayıblar.
Ukraynanın əsas mərkəzi dini qurumlarından biri “Ukrayna Müsəlmanları Ruhani İdarəsi” olsa da bundan əlavə Krım Tatar Müftiliyi və ölkə səviyyəsində digər dini qurumlar da vardır.
Ukraynanın paytaxtı Kiyevdə ilk məscid 2001-ci ildə Ukrayna Müsəlmanları Ruhani İdarəsi tərəfindən tam olaraq istifadəyə verilib. Əlbəttə “məscid” deyəndə günbəzli və minarəli, rəsmi olaraq məscid kimi tikilən və qeydiyyata alınan ibadət binası nəzərdə tutulur, adi ibadət evləri, namazxanalar, hüseyniyələr buna aid deyil. Kiyevdə “Ər-Rəhmə” adlanan bu məscid kompleksi Ukraynanın demək olar ki ən böyük rəsmi və mərkəzi İslam ocağıdır. Ukrayna Müsəlmanlarının Ruhani İdarəsi və Kiyev İslam Universiteti də bu məscid kompleksində yerlşəir. Ukrayna Müsəlmanları Ruhani İdarəsinin fəaliyyətinə baxdıqda onu uğurlu bir dini qurum adlandırmaq olar. Məsələn 4 dekabrda 20011-də Kiyevdə yeni məscid kompleksi açıldı və eyni zamanda Kiev İslam Universtetinin binası tam olaraq bu qurum tərəfindən istifadəyə verildi, 2012-ci ildə Krımda Simferopolda İslam Universtetinin binası təhvil verildi, Donetskda İslam Universiteti fəaliyyət göstərirdi. İslam Universtetinin diplomunu Ukrayna dövləti qurumları rəsmən təqdim edir və Misirin “Əl-Əzhər” İslam Universteti ilə sıx əməkdaşlıqdadır. Ukraynda 1000-dən çox müsəlman dini icması var və hamısı qeydiyyatdan keçib fəaliyyət göstərir. Ukrayna Müsəlmanları Ukrayna dövləti ilə razılaşdıraraq Ukrayna qida məhsullarinın “Halal” standartını müəyyənləşdirib, 2012-ci ildən “Halal” sertifikatları verilir, hətta artıq neçə ildir ki, Ukrayna müsəlman ölkələrinə halal qida ixarac edir.
Ukrayna müsəlmanları demək olar ki, heç bir dini problem yaşamır, burada qadınların hicab problemi yoxdur, Ukrayna məktəblərinə müsəlman qız balalar başı bagli da gedir, müsəlman xanımlara başı örtülü şəkillərini pasport və şəxsiyyət vəsiqələrinə vurmaqa icazə verilir. Hətta Ukraynada Həccin qiyməti bəzi müsəlman ölkələrilə müqaisədə ucuzdur.

Kiyevin 5000 nəfərlik Ukrayna mərkəzi sarayında elə həmin sayda inanclının iştirakı ilə vaxtaşırı Ukrayna Müsəlmanlarının Qurultayı baş tutur, dini konfranslarda, məscid və sair ibadət ocaqlarında məzhəblərə bərabər yanaşılır. Ukrayna müsəlmanları əsasən tatarlar, ərəblər, çeçenlər, dağıstanlılar, taciklər, özbəklər və azərbaycanlılardan ibarətdir. Ukrayna müsəlmanlarının əksəriyyəti təkfirçiliyin və xəvaricliyin İslamdan kənar olduğunu və müsəlmanlara ləkə olduğunu bildirirlər, separatim, nasizm, aqressiya və terror qətiyyətlə pislənilir və İslamdan uzaq hərəkət kimi tanıtdırılır.

Ukraynanın keçmiş paytaxtı Xarkov şəhəri yeganə şəhıərdir ki, orda iki rəsmi, minarəli və günbəzli məscid var, bunlarda biri 19-cu əsrdə tikilən tatarlar məscidi kimi tanınan "Fatimə" məscidi, digəri 21-ci əsrdə tikilən və azərbaycanlılar məscidi kimi tanınan "İmam Əli" məscididir.

Maraqlıdır ki bir neçə il bundan qabaq Ukrayna dərsliklərinin birində müsəlmanlar "aqressiv" adlandırılmışdı, müsəlmanların etirazıyla tezliklə bu dərsliklərin əvəz olunması ilə baglı dövlət qərar verdi və problemi həll oldu. Burada müsəlmanlar bəzi müsəlman ölkələrindən daha yaxşi dinlərini qoruya bilirlər.

Bəli bu 2014-cü ilə qədər olan bu xristian və avropa Ukraynasıdır. Çox təəssüf ki belə bir ölkə artıq on ildən çoxdur ki, parçalanıb və müharibə şəraitindədir.

**Bakı - 2018**

## Onuncu məqalə

## Əhli-beyt tərəfdarları

Əgər Əhli-beyt tərəfdarlarından söz açmaq istəsək, ilk olaraq onu deməliyik ki, dünyanın bütün ölkələrində az sayda da olsa Peyğəmb və məsum əhli-beytinin tərəfdarlarını, sevənlərini, dostlarını tapmaq olar. Quran və doğru hədislərin bizə tanıtdırdığı məsum ailənin tərəfdarları planetimizin bütün guşələrində var, onları "şiə", "imamiyyə", "cəfəri", "onikiimamlı" adlandırırlar. Çox təəssüf ki, İslam peyğəmbərinin bu dünyadan köçməsiylə bəzi müsəlmanların yaratdığı təfriqə və Qurani-Kərimin, Allahın elçisinin sözlərinə tam əməl etməyənlərin üzündən parçalanan İslam ümməti, bu gün əsasən məzhəblərlə tanınır, əfsuslar olsun ki, dininə əməl edən, məzhəbsiz müsəlman yoxdur. Əlbəttə bu sözü bütün səmavi dinlərin ardıcıllarına - xristian və yəhudilərə də aid etmək olar. Həmin dinlərin daşıyıcıları da məzəhəblərlə tanınır. İslam dinində Peyğəmbərimiz özü hələ sağlığında bu vəziyyətdən xəbər verib və İslamın ilahi kitabı Qurani Kərimin Qiyamətə qədər toxunulmaz qalacağına baxmayaraq, müsəlmanların bir neçə yola parçalanacağını və onlardan yalnız bir yolun ardıcıllarının haqq və nicat tapan olacağını bəyan edib. Həmin bu yollardan biri şiəlikdir, bu iki əsas müsəlman məzhəbindən biridir. Hal hazırda dünyanın səkkiz milyarda yaxın əhalisindən təqribən 1.8 - 2.0 milyardı müsəlmandır ki, onlarında təqribən 20-25 % - 400-500 milyon nəfəri şiədir, Əhli-beyt tərəfdarlarıdır. Yəni Peyğəmbərdən sonra on iki imamı əsas bilir və Hz. Muhəmmədin qızı Fatiməylə birgə başda Rəsuli Əkrəm olmaqla on dörd nəfər məsumun ən uca məqamlı olduqlarına etiqadlıdırlar.

Ümumiyyətlə müsəlmanlar əsasən iki məzhəbə bölünürlər, əlbəttə bu iki məzhəb – sünnilik və şiəlik də tarixən bir neçə qollara ayrılmışlar, sünni məzhəbi əsasən – Hənəfi, Mailiki, Şafei, Hənbəli qollarına bölünmüşdür, 18-əsrdə yaranan Sələfi məzhəbi də bura aiddir. Maraqlı olsa da sünnü qardaşların məzhəbindən olan malikilər etiqadi baxımdan, şafeilər fiqhi baxımdan, hənbəlilər rəvayi baxımdan şiələrə uyğunluqları var. Bunu da deyək ki, din məzhəblərə, məzhəblər qollara, bəzi qollar da xırda ideoloji cərəyanlara qədər bölünür.

Tarixən şiə məzhəbi də qollara ayrılmışdır bunlardan ən böyüyü İmam Cəfəri Sadiqin adıyla tanınan "cəfəri" ("onikiimamlı" "imamiyyə") adıyla tanınan şiələrdir. Bu gün dünyada "şiə" sözü işlənəndə əsasən "cəfərilər" nəzərdə tutulur, digər şiə məzhəbinə aid olanlar öz adlarıyla tanınırlar. Tarixən şiə məzhəbləri az olmasa da hal-hazırda dünyada cəfərilərdən savayı "zeydilik" (əsasən Yəməndə), "ismaililik" (əsasə Əfqanıstanda) və "ələvilik" (əsasən Türkiyədə) qalmışdır. Əlbəttə həmin bu ölkələrdə - Yəmən, Əfqanıstan, Türkiyədə cəfəri şiələri də az deyil, bu barədə qeyd edəcəyik. Zeydi, ismayili və ələvilərə isə digər dünya ölkələrində çox az rast gəlinər. Dünya şiələrinin böyük əksəriyyəti cəfəri şiələridir.

Onların - Əhli-beyt tərəfdarlarının etiqadında görə Peyğəmbərdən sonra ilahi canişinlik, vəlilik, vəsilik, imamət məqamına Allah tərəfindən ardıcıl olaraq təyin olunan 12 imamdır, Hz. Muhəmmədən sonra onun yerini digər peyğəmbərlərdə olduğu kimi ilahi təyin olub, peyğəmbər olmayanda onun yerini imam tutur. Bütövlükdə on dörd məsumun tərəfdarlığı təkcə tanımaq, ehtiram göstərmək, quru sevməklə bitmir. Bu Qədir-Xumda Allahın əmri, Peyğımbərin göstərişi əsasında vacib olan bir məsələdir. Əhli-beyti tanımaq, ehtiram və sevgi onlara itaətlə tamamlanır.

Əhli beyt tərəfdarları görə İslam dinini Qurandan sonra İslam Peyğəmbəri, onun nəslindən 12 imam və imamlar anası, sonuncu ilahi elçi Muhəmməd peyğəmbərin qızı Fatimə Zəhranın (on dörd məsumun) hədislərində yaşayır. Əhli-beyt dostları dünyanın hər bir yerində qeyd etdiyimiz bu etiqadın daşıyıcılarıdır.

Dünyada isə şiələrin say və ya faizlə çoxluq təşkil etdiyi dörd ölkə var: İran, Azərbaycan, İraq və Bəhreyn. Bu ölkələrin əhalisinin əksəriyyətinin dini məzhəbi şiədir - cəfəridir. Bundan əlavə bir necə xristian ölkəsi və sünni qardaşların çoxluq təşkil etdiyi ölkələr də var ki, orada da şiə məzhəbinin davamçıları vardır. Məsələn əhalisin əksəriyyəti sünni müsəlmanlardam olan ölkələrdən Pakistan, Əfqanıstan, Livan, Türkiyəni misal gətirmək olar, qeyri-müsəlman ölkələrdən isə Hindistanı, Rusiyanı, İngiltərəni, Almaniyanı, hətta bir çox Afrika ölkələrini misal çəkə bilərik. Əlbəttə Afrika ölkələrində bu kimi məlumatlar ictimaiyyətə tam açıqlanmadığı üçün daha geniş məlumat vermək çətindi, orası bəllidir ki, Afrika müsəlmanlarının əksəriyyəti cünni – maliki və şafei məzhəbinin davamçılarıdır, şiə - cəfəri məzhəbinin ardıcılları kifayət qədərdir.

Yuxarıda qeyd edilən kimi, hal-hazıra qədər qalan şiə məzhəbi qolları yadda qalan tarixi keçmişə sahibdirlər, onların öz fiqhi məktəbləri yoxdur, bütün şiə məzhəbi qolları fiqhi zərurətləri olduğu halda Cəfəri fiqhi məktəbinə müraciət edirlər, amma, öz din mütəxəssisəri vardır. Əlbəttə İbaziyə (Əbaziyə) məzhəbini də unutmayaq ki, onlar da özlərini şiə etiqadlı məzhəb kimi tanıdırlar və qismən fiqhə də sahibdirlər.

Bunu da qeyd edək ki, fiqh - dinin əməli bölümü deməkdir və şiəlik fiqhdə bölünmür, bütün fiqhə əməl edən şiələrin fiqhi İmam Cəfəri Sadiqin vaxtından formalaşmış "Cəfəri fiqhi"dir. Sünnü qardaşlarda isə dörd fiqhi məktəb var: Hənəfi, Maliki, Şafei, Hənbəli, məsələn sonradan yaranan Sələfi cərəyanı Hənbəli fiqhi ilə gedir.

Etiqadi məsələlərdə də İslam məzhəbləri çox deyil, cəmi üç məzhəbdir: Əşərilər, Mötəzililər və İmamilər (şiələrin etiqadı).

Bəs göründüyü kimi müsəlmanlar ümumi olaraq sünnü və şiəyə - iki məzhəbə, etiqadda Əşərilər, Mötəzililər və İmamilərə - üç təriqətə bölünür, fiqhdə isə Hənəfi, Maliki, Şafei, Hənbəli və Cəfəri fiqhi məktəbinə - beş fiqhi məktəbə ayrılır.

Qalan təriqətlər bu məzhəblərə bağlıdırlar yəni özlərinin etiqadi və fiqhi məktəbləri yoxdur, başqa sözlə desək,digər təriqətlər daha çox tarixi-ideloji cərəyanlardırlar. Göründüyü kimi Əhli-beyt tərəfdarlarından ibarət olan şiəlik bütün sahələrdə mükəmməllik təşkil edir, tam əsaslı etiqadı: İmamiyyə və tam sübutlu fiqhi: Cəfərilikdir.

Cəfərilikdən başqa şiə təriqəti kimi bu günə qədər qalan Zeydilər, İsmayililər və Ələvilər qeyd etdiyim kimi nisbətən tarixi daha genişdir hətta dövlətçilik ənənələri də vardır, məsələn İsmayililərin Əndəlosda yaratdıqları Fatimilər dövləti, Zeydilərin bir vaxtlar Yəməndə yaratdıqları Zeydilər dövləti və Ələvilərin Surayada Ələvilər dövləti olmuşdur. Bu dövlətlər tarixin bir guşəsinə qovuşsalar da vaxtiylə dövlətdə olan biz məzhəb olmuşlar. Tarixdə Səfəvilər dövləti - qızılbaşları şiə məzhəbinin dövləti kimi tanınır. Burda ibaziyələri (ibadiyələri) də unutmaq olmaz onlar qeyd etdiyimiz kimi şiə məzhəblərindən sayılır və Oman Sultanlığı teokratik - dini dövlət olmasa da rəsmi dini İslam və məzhəbi İbaziyədir. İran İslam Respublikası teokratik dövlət sayılır və rəsmi dini islam məzhəbi şiəlik - cəfərilikdir. Səudiyyə Ərəbistanı Krallığı da teokratik dövlətdir və rəsmi dini İslam və məzhəbi sələfilikdir.

Əgər İslam dinini və şiə məzhəbini milətlər tərəfdən araşdırsaq dünyada əsasən üç böyük millət tarixən İslamın daşıyıcılarıdır: ərəblər, türklər və farslar, əlbəttə burda pakistan, malaziya, indoneziya, banqladeş və sair xalqları da unutmaq olmaz, lakin onlar daha çox sonradan müsəlman olan xalqlardır. Amma əsasən ərəblər, türklər və farslar daha çox və tarixən İslam dinini yaşadan xaqllardır, şiəlik bunların hər üçündə var, ərəblərdə əsasən iraqlılar, türklərdə əsasən azərilər, farslarda isə əsasən iranlılardır.

Əlbəttə istərdik ki, dinizim məzhəblərə parçalanmayaydı, amma bu da bir gerçəkdir, indi məzhəbsiz İslam iddiası özü də bir məzhəbdir. Əsas odur ki, Quranın dediyi vəhdəti daim qoruyaq, birləşən nöqtələrdə birləşə bilək, bir-birinə dözümlü olaq, ixtilafdan uzaq, elmə və agahlığa yaxın olaq.

**Bakı - 2019**